## Ümumi məlumat

Azərbaycan Respublikasında inzibati rayon olan Kəlbəcər rayonu Kiçik Qafqazın mərkəzi hissəsində yerləşir. Qərbdən Ermənistan Respublikası ilə həmsərhəddir. Sahəsi 3050 $km^2$, əhalisi 95,3 min nəfər (1 yanvar, 2021-ci il). Mərkəzi Kəlbəcər şəhəridir. Rayona Kəlbəcər şəhəri, İstisu qəsəbəsi və 145 kənd daxildir. Kəlbəcər sahəsinə görə Azərbaycanın ən böyük rayonudur. Kəlbəcər şəhəri Bakıdan təxminən 450 km məsafədə, Bərdə - İstisu (Kəlbəcər) avtomobil yolunun kənarında, Tərtər (çay) çayı sahilində, sıldırım qayalıqlar üzərində yerləşir.

"Kəlbəcər" toponiminin mənşəyi qədim türk dilində (oykonimin ilkin forması Kevliçer kimi qəbul edilib) "çay üstündə qala" deməkdir. Kevli "çayın üstü", cər "yarğan, qaya" mənasını verir.

Kəlbəcərdə ona dünya şöhrəti qazandırmış Yuxarı İstisu, Aşağı İstisu, Keşdək, Qarasu, Mozçay, Bağırsaq, Qotursu kimi çox böyük müalicə-balneoloji təsirə malik mineral su yataqları mövcuddur.

Kəlbəcər rayonu qədim qalalar və məbədlərlə zəngindir. Kəlbəcər rayonunun tarixi-dini memarlıq abidələrinə Gəncəsər monastırı, Xudavəng və ya Dədəvəng monastır kompleksi, Lev qalası və digər tikililər daxildir. Albaniya ərazisində tikilən ilk məbədlərdən biri Xudavəng kompleksi olub. Bu tikili çox vaxt "Alban bazilikası" adlanır. İlk məbəd kompleksi günbəzsiz uzun binalardan ibarət olub. Xudavəng məbəd kompleksi qonşu xalqların dini memarlıq tikililərindən tamamilə fərqli quruluşa və xüsusiyyətlərə malikdir. Baş məbəd binasının plan və kompozisiya quruluşu asimmetrik formadadır. Kompleks alban yepiskopunun iqamətgahı və mühüm mədəni-maarif mərkəzi olub. Kompleksin ən qədim tikintisi baş məbəd hesab edilir. XII-XIII əsrdə tikilmiş günbəzli məbədlər bu kompleksə daxildir. Bunlar Arzu xatun və İgid Həsən məbədləridir.



Kəlbəcərin işğalından bir il öncə erməni silahlı birləşmələri tərəfindən törədilmiş Ağdaban faciəsi Ermənistanın Azərbaycana təcavüzünün ən qanlı səhifələrindən biridir. Ağdaban kəndi Kəlbəcər rayonunda, Ağdaban çayının sağ sahilində, Ağdaban dağının yamacında, Murovdağ silsiləsinin cənub ətəyində, rayon mərkəzindən 36 km şimal-şərqdə yerləşir. 1992-ci il aprelin 7-dən 8-nə keçən gecə Ermənistan silahlı birləşmələri Dağlıq Qarabağdakı separatçı erməni quldur dəstələrinin köməyilə Ağdaban və Çayqovuşan kəndlərinə hücum etdilər. Hücumdan xəbərsiz olan kənd əhalisi başıaçıq-ayaqyalın qarla örtülü meşələrə, dağlara dağıldı. Kəndləri müdafiə edən kiçik dəstə ermənilər tərəfindən məhv edildiyindən

əhali müdafiəsiz qalmışdı. Erməni daşnakları Ağdaban kəndinə soxularaq 130-dan çox evi tamamilə yandırdılar, 779 nəfər dinc sakinə divan tutdular. Onlar yaşlı, qoca, qadın, uşaq demədən dünyada görülməmiş ən qəddar üsullarla dinc əhalini qətlə yetirərək soyqırımı aktı törətdilər. Bu faciə zamanı 32 nəfər amansızcasına qətlə yetirilmiş, 8 nəfər 90-100 yaşlı qoca, 2 nəfər azyaşlı uşaq, 7 nəfər qadın diri-diri odda yandırılmışdır. Həmçinin 2 nəfər itkin düşmüş, 12 nəfərə ağır bədən xəsarəti yetirilmiş, 5 nəfər isə girov götürülmüşdür. Dədə Şəmşirin nəslindən olan 15 nəfər sakin də bu faciənin qurbanı olmuşdur. Erməni cəlladları Qurbanov Qulu Şabər oğlunu diri-diri tonqalda yandırmış, 8 yaşlı Ülviyyənin gözləri qarşısında atası Camalı güllələmiş, özünü isə kartof quyusunda diri-diri basdırmışlar. Ağdaban faciəsinə görə cəzalandırılmayan erməni separatçıları bütövlükdə Kəlbəcərin işğalı üçün planlar hazırlayırdılar. Faciənin ağır müsibətlərini yaşamış, evləri viran qoyulmuş ağdabanlılar doğma kəndlərini tərk etmədilər. Ağdaban camaatı kəndi yenidən bərpa edib yaşamağa başladılar. Lakin 1993-cü il mart ayının 27-də erməni separatçıları Kəlbəcər rayonuna hücum edən zaman işğalı yenidən Ağdaban kəndindən başladılar. Erməni silahlıları yenidən kəndə hücum edərək onu viran qoydular. Beləliklə də, onlar Ağdaban kəndində ikinci faciəni törətdilər. Ağdabanda erməni quldurları tərəfindən tarix, memarlıq və mədəniyyət abidələri dağıdıldı, müqəddəs ziyarətgah və məzarlıqlar məhv edildi.

Kəlbəcər rayonu 2 aprel 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuşdur. Kəlbəcərin işğalı zamanı rayonun 54 mindən artıq əhalisi məcburi köçkün düşmüş, 321 nəfər əsir düşmüş və ya girov götürülmüş, 511 nəfər vəhşicəsinə qətlə yetirilmiş, 97 məktəb, 9 uşaq bağçası, 116 kitabxana, 43 klub, 42 mədəniyyət evi, tarix-diyarşünaslıq muzeyi, 9 xəstəxana, 75 tibbi məntəqə, 23 ambulatoriya, 9 aptek, yüzlərlə inzibati bina, minlərlə mənzil, 100 min baş qaramal, 500 min baş qoyun-quzu, 100-lərlə maşın, texnika və s. talan edilmiş və rayonun milyardlarla manatlıq sərvəti Ermənistana daşınmışdır.

Dağlıq Qarabağ ərazisindən kənarda yerləşən, 58 min (1993) nəfər əhalisi olan Kəlbəcər rayonunun Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilməsi nəticəsində dinc əhaliyə vəhşicəsinə divan tutulmuş, yerli əhali min illər boyu yaşadığı ata-baba torpağından qovularaq didərgin salınmışdı.

Kəlbəcərin işğalından sonra 30 aprel 1993-cü ildə BMT Təhlükəsizlik Şurası 3205 saylı iclasda 822 saylı Qətnamə qəbul etmişdi. Qətnamədə bütün işğalçı qüvvələrin Kəlbəcər və Azərbaycanın digər işğal olunmuş rayonlarından dərhal çıxarılması tələb olunurdu. Lakin Kəlbəcər işğaldan azad olunanadək, 28 il ərzində həmin qətnamədən irəli gələn hər hansı öhdəlik yerinə yetirilmədi və Azərbaycan öz gücü hesabına ərazilərini işğaldan azad etdi.

Azərbaycan ATƏT-in Minsk qrupunun vasitəsi ilə ərazisinin 20%-ni işğal edən Ermənistanla danışıqlar apararaq, münaqişəni sülh yolu ilə nizamlamağa çalışdı. Lakin danışıqlar heç bir nəticə vermədi, əksinə, aydın şəkildə müşahidə edildi ki, Ermənistan tərəfi, sadəcə olaraq, status-kvonu əbədi etməyə çalışırdı.

Azərbaycan xalqı işğalla barışmadı və ərazi bütövlüyünü bərpa etmək üçün sarsılmaz əzm göstərdi. Ötən dövr ərzində çoxşaxəli və dürüst xarici siyasətin yürüdülməsi, həyata keçirilən regional enerji və kommunikasiya layihələri Azərbaycanın etibarlı tərəfdaş kimi mövqeyini xeyli gücləndirdi. Bütün bu amillər Azərbaycanın mütləq Qələbəsini tam şərtləndirdi və onun əldə edilməsini zaman məsələsinə çevirdi.



2016-cı ilin əvvəlində münaqişənin həlli ilə əlaqədar konkret planlar müzakirə olunduğu vaxtda Ermənistan yenə hərbi təxribata əl ataraq, aprelin 2-də qoşunların təmas xətti boyunca əhalinin sıx məskunlaşdığı ərazilərə, o cümlədən məktəblərə, xəstəxanalara və ibadət yerlərinə atəş zərbələri endirdi.

Azərbaycan Silahlı Qüvvələri düşmənə layiqli cavab verərək, əks-həmlə nəticəsində Füzuli, Cəbrayıl və keçmiş Ağdərə rayonunun işğal altında olan 2 min hektardan çox ərazisini azad etdi.

Ermənistanın baş naziri Nikol Paşinyan 2019-cu il avqustun 5-də Xankəndidə "Qarabağ Ermənistanın bir hissəsidir və nöqtə" açıqlaması ilə çıxış etdi. Buna qədər Ermənistan hərbi işğal və anneksiya siyasətinin beynəlxalq siyasi-hüquqi və mənəvi məsuliyyətini dərk edərək işğalçılıq siyasətini pərdələməyə və onu Dağlıq Qarabağın erməni əhalisinin öz müqəddəratını təyin etmək hüququ kimi göstərməyə çalışırdı. N.Paşinyanın bu bəyanatı Ermənistanın əsl məqsədinin işğalçılıq olduğunu aydın şəkildə göstərdi.

Ermənistan ATƏT-in Minsk qrupunun həmsədrlərinin vasitəçiliyi ilə həyata keçirilən sülh prosesini pozmaq, işğalla bağlı mövcud status-kvonu qorumaq və işğal edilmiş ərazilərin ilhaqına nail olmaq üçün məqsədyönlü şəkildə danışıqlar prosesinin format və mahiyyətini sarsıtdı.

2020-ci ilin iyul ayında Ermənistan Azərbaycanla dövlət sərhədinin Tovuz istiqamətində növbəti hərbi təxribat törətdi. Təxribatın məqsədi regionda yeni gərginlik mənbəyi yaratmaq, Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalı məsələsini ikinci plana keçirmək, üçüncü dövlətləri münaqişəyə cəlb etmək və Azərbaycanın strateji infrastrukturuna zərər vurmaqdan ibarət idi.

2020-ci il sentyabrın 21-də Azərbaycan Prezidenti, Qoşulmama Hərəkatının sədri İlham Əliyev BMT Baş Assambleyasının 75-ci Sessiyası çərçivəsində BMT-nin 75 illiyinə həsr edilmiş Yüksək Səviyyəli İclasda çıxışı zamanı bəyan etdi ki, təcavüzkar ritorika və təxribatlar Ermənistanın Azərbaycana qarşı yeni təcavüzə hazırlaşdığını göstərir.

Ermənistanın ardıcıl təxribatları və yeni müharibə planlarına son qoyulması üçün dünya birliyi tərəfindən heç bir praktiki addım atılmadı. Bundan daha da ürəklənən Ermənistan 2020-ci il sentyabrın 27-də bir neçə istiqamətdən Azərbaycan Ordusunun mövqelərinə doğru hücuma keçdi, ağır artilleriyadan istifadə edərək yaşayış məntəqələrinə şiddətli atəş zərbələri endirdi.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev erməni silahlı qüvvələrinin yeni hərbi təxribatı haqqında məlumat alan kimi, Müdafiə Nazirliyinin, habelə digər aidiyyəti üzrə qurumların rəhbərliyinə bu hərbi təxribatın qarşısının alınması üçün qətiyyətli cavab tədbirlərinin görülməsi haqqında göstəriş verdi. Nəticədə Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin qərarı əsasında Azərbaycan Ordusunun bütün cəbhə boyu əks-hücum əməliyyatları başlandı.

Azərbaycan Ordusu əks-hücum əməliyyatlarını işğal altında olan ərazilərdəki təmas xəttinin üç itiqamətindən - Ağdam-Tərtər, Murovdağ və Füzuli-Cəbrayıl istiqamətlərindən həyata keçirməyə başladı.

“İkinci Qarabağ”, yaxud “Vətən müharibəsi” kimi dadandırılan 44 günlük müharibə başlandı. Müharibənin elə ilk günündən də Azərbaycan Ordusunun hissə və bölmələri təmas xətti boyunca xüsusi möhkəmləndirilmiş müdafiə xətlərinə malik erməni mövqelərinin üzərinə sürəkli hücuma keçdilər.

Günün birinci yarısında artıq bəzi istiqamətlərdən erməni silahlı qüvvələrinin müdafiə xətləri yarıldı.

Nəticədə, Füzuli rayonunun Qaraxanbəyli, Qərvənd, kənd Horadiz, Yuxarı Əbdürrəhmanlı, Cəbrayıl rayonunun Böyük Mərcanlı, Nüzgar kəndləri, günün ikinci yarısında isə Murov dağ silsiləsində Murov zirvəsi erməni işğalından azad edildi. Murov zirvəsinin azad edilməsi ilə Ağdərə-Basarkeçər avtomobil yolu Azərbaycan Ordusu hissələrinin nəzarəti altına düşdü. Adları çəkilən yaşayış məntəqələri Vətən müharibənin gedişində azadlığına qovuşmuş ilk yaşayış məntəqələri oldular.

Azərbaycan Ordusu 2020-ci il oktyabr ayının 4-də Cəbrayıl şəhərini və onun ətrafında olan 9 yaşayış məntəqəsini işğaldan azad etdi.

Oktyabrın 5-də Ermənistanın baş naziri Xankəndinə səfər etdi və bölgədə olan qüvvələri yenidən təşkilatlandırmaqla Azərbaycan Ordusunun zəfərlərinin qarşısını kəsməyə yeni bir cəhd göstərdi. Oktyabrın 6-da və 7-də bütün cəbhə boyu taktiki və strateji mövqelərin əldə edilməsi uğrunda döyüşlər davam etdi.

Oktyabr ayının 9-da Azərbaycan Prezidenti radio və televiziya ilə Azərbaycan xalqına müraciət etdi. Müraciətdə Hadrut qəsəbəsinin, Çaylı, Yuxarı Güzlək, Gorazıllı, Qışlaq, Qaracallı, Əfəndilər, Süleymanlı və Sur kəndlərinin işğaldan azad edildiyi bildirilirdi .

Ermənistan hərbi qüvvələri oktyabr ayının 13-də cəbhənin şimalında hərbi təşəbbüsü ələ keçirməyə çalışdılar. Həmin gün cəbhənin şimal istiqamətində sonuncu müharibənin ən ağır döyüşlərindən biri baş verdi. Bir gün sonra Ermənistan Müdafiə Nazirliyinin rəsmisi Ağdərə istiqamətindəki erməni bölmələrinin məhv edildiyini etiraf etmək məcburiyyətində qaldı.

Oktyabrın 17-də gün ərzində bir-birinin ardınca erməni hərbi qüvvələrinə ağır zərbələr vuruldu.

Başlıcası isə Azərbaycan Ordusu həmin gün Füzuli şəhəri ilə bərabər, daha 7 kəndi erməni işğalından azad etdi.

Xüsusilə, cəbhənin cənubunda Azərbaycan Silahlı Qüvvələrinin bölmələri Araz boyu Zəngilana doğru sürətli hücumlarını davam etdirməkdə idi. Oktyabrın 19-u gün ərzində və 20-nə keçən gecə cəbhənin Füzuli-Hadrut-Cəbrayıl və Qubadlı-Zəngilan istiqamətlərində müqavimət göstərməyə cəhd edən düşmənə qarşı aparılan döyüşlər öz intensivliyini saxlamaqda idi.

Oktyabrın 23-də azad edilmiş yaşayış məntəqələri arasında Qubadlı rayonunun da bir neçə yaşayış məntəqəsi var idi. Həmin yaşayış məntəqələri bunlar idi - Zilanlı, Kürd Mahrızlı, Muğanlı və Alaqurşaq kəndləri.

Bütün cəbhə boyu Ermənistan ordusunun məğlubiyyəti atəşkəs üçün vasitəçiləri hərəkətə keçirmişdi.

Amerika Birləşmiş Ştatlarının vasitəçiliyi ilə 2020-ci il oktyabr ayının 26-da səhər saat 08.00-dan etibarən cəbhə xəttində humanitar atəşkəs haqqında razılıq əldə edilmişdi. Ermənistan silahlı qüvvələrinin bölmələri yeni humanitar atəşkəs rejimi qüvvəyə mindikdən bir neçə dəqiqə sonra - saat 08.05-dən etibarən Tərtər, Ağdam, Ağcabədi, Füzuli, Qubadlı və Laçın istiqamətlərində yerləşən Azərbaycan mövqelərini və yaşayış məntəqələrini, o cümlədən Ermənistanın Berd, Çəmbərək və Vardenis rayonları ərazisindən Tovuz, Gədəbəy və Daşkəsən rayonlarını müxtəlif növ atıcı silahlar, minaatanlar və toplardan atəşə tutdu.

Oktyabrın 28-də Azərbaycanın daha 13 kəndi erməni işğalından azad edildi. Oktyabrın 30-da Azərbaycan Ordusunun dəqiq atəşləri nəticəsində erməni silahlı qüvvələrinin Xankəndi ətrafındakı böyük

raket-mərmi anbarını, habelə dünyanın ən yüksək effektivliyə malik radiolokasiya stansiyalarından birini, stels təyyarələri belə aşkar etməyə imkan verən P-18 RLS-i məhv etdi. Bu obyektlərin məhv edilməsi erməni işğalçı qüvvələrinin Qarabağ ərazisindəki təminat və təchizat imkanlarını xeyli zəiflətdi. Elə oktyabrın 29-30-dan etibarən Azərbaycan Ordusunun ilk bölmələri Şuşa ətrafında cəmləşməyə başladılar.

Şuşanın taleyinin həll edildiyi 2020-ci il noyabr ayının 5-6-da Azərbaycan Ordusunun bölmələri yalnız bu şəhər daxilində və ətrafında deyil, cəbhənin digər sahələrində də erməni hərbi qüvvələrinə qarşı qətiyyətli döyüşləri davam etdirirdi. Xüsusilə, Xocavənd və Ağdərə istiqamətlərində bu döyüşlər xüsusi gərginliyi ilə seçilirdi. Xocavəndi Şuşa ilə bağlayan yolun itirilməsini istəməyən erməni hərbi komandanlığı bu bölgəyə xeyli qüvvə toplasa da, Azərbaycan Ordusunun kəsərli hücumlarının qarşısını saxlamaq günü-gündən çətinləşirdi. Aparılan döyüşlərdə erməni itkilərinin sayının xeyli çox olmasını erməni rəsmiləri özləri də etiraf etmək məcburiyyəti qarşısında qalmışdılar .

Noyabrın 8-i isə Azərbaycan tarixinə Şuşa şəhərinin erməni işğalından azad edilməsi günü kimi yazıldı.

Noyabrın 9-da Azərbaycanın hərbi qüvvələri daha şanlı bir zəfəri əldə etdilər. Həmin gün Azərbaycanın 71 kəndi, 1 qəsəbəsi və 8 strateji yüksəkliyi erməni işğalından azad edildi və erməni hərbi qüvvələrini sarsıdıcı bir zərbə vuruldu .

Bütün bunlardan sonra Ermənistan rəhbərliyi məğlub olduğunu etiraf etdi kapitulyasiya aktını imzalamalı oldu. Müharibənin dayandırılması ilə bağlı 2020-ci il noyabr ayının 10-na keçən gecə "Azərbaycan Respublikasının Prezidenti, Ermənistan Respublikasının baş naziri və Rusiya Federasiyasının Prezidentinin bəyanatı" imzalandı. Bu bəyanata əsasən, 2020-ci il noyabr ayının 10-da saat 00.00-dan etibarən bütün cəbhə boyu atəş dayandırılır, Azərbaycanın və Ermənistanın silahlı qüvvələri olduqları mövqelərdə dayanır, dekabr ayının 1-dək Ağdam, Kəlbəcər və Laçın rayonları bəyanatda öz əksini tapmış qrafikə əsasən Azərbaycan ərazisindən çıxarılır, Laçın-Şuşa yolu boyunca beş kilometr enində koridor yaradılır və bu koridora nəzarət Rusiyanın sülhməramlı qüvvələrinə həvalə edilirdi.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev üçtərəfli bəyanatın izmalanmasını Azərbaycan xalqının, dövlətinin və ordusunun şanlı qələbəsi, tarixi zəfəri kimi qiymətləndirirdi. Bu bəyanatla Azərbaycan ərazilərinin 30 il davam edən işğalına son qoyuldu, Ağdam, Kəlbəcər və Laçın isə heç bir döyüş aparılmadan, qan axıdılmadan erməni işağalından azad edildi. Bütünlükdə Vətən müharibəsinin davam etdiyi 44 gün ərzində döyüş meydanlarında əldə edilmiş uğurlar nəticəsində 300-ə yaxın yaşayış məntəqəsi, o cümlədən Şuşa, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı şəhərləri, Hadrud və Suqovuşan qəsəbələri, digər kənd və qəsəbələr işğaldan azad edildi.

Böyük Zəfərin əldə edilməsi ilə təxminən 30 il müddətində davam edən “Dağlıq Qarabağ” adlı bir münaqişəyə də son qoyuldu, Azərbaycan xalqı və dövləti beynəlxalq hüquq normalarına uyğun olaraq öz ərazi bütövlüyünü bərpa etdi, erməni faşizminə və onun dayaqlarına sarsıdıcı bir zərbə vuruldu.

Hərbi müstəvidə əldə edilən qələbənin siyasi müstəvidə davam etdirilməsi nəticəsində 44 günlük Vətən müharibəsindən sonrakı 20 gün ərzində 3 rayon – noyabrın 20-də Ağdam, noyabrın 25-də Kəlbəcər, dekabrın 1-də isə Laçın Azərbaycana təhvil verildi.

Məğlubiyyətlə barışa bilməyən erməni əhalisi bölgədə Azərbaycana qarşı ekoloji terror fəaliyyətləri həyata keçirmişdir. Ərazini tərk edən ermənilər evləri ilə yanaşı meşələri də yandırmışdır.

Kəlbəcər rayonunun 2 Milli qəhrəmanı, Birinci və İkinci Qarabağ müharibəsi dövründə is 258 hərbi şəhidi və 226 mülki şəhidi var.



2020-ci il noyabrın 26-da “Kəlbəcərin azad olunmasına görə” medalı təsis edilib. Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin sərəncamları ilə Kəlbəcər rayonunun işğaldan azad edilməsi uğrunda aparılmış döyüş əməliyyatlarında iştirak edərək şəxsi igidlik və şücaət nümayiş etdirmiş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 9424 hərbi qulluqçusu “Kəlbəcərin azad olunmasına görə” medalı ilə təltif olunmuşdur.

2020-ci il noyabrın 28-də işğaldan azad olunan Kəlbəcər şəhərində rəşadətli ordumuzun bölmələri Azərbaycan bayrağını dalğalandırdılar.

İşğaldan azad olunduqdan sonra Kəlbəcərdə yenidənqurma və bərpa işlərinə start verildi.

Azərbaycan Alban-udi dini icmasının nümayəndələri 2020-ci il dekabrın 4-də Ermənistanın işğalından azad olunan Kəlbəcər rayonundakı Xudavəng monastır kompleksini ziyarət ediblər. Azərbaycanda firavan yaşayan udilər Alban Apostol Kilsəsinin mənəvi varisləri olaraq Qəbələ və Oğuzdakı alban məbədlərində olduğu kimi, işğal altındakı Alban kilsələrində, o cümlədən Kəlbəcərdəki Xudavəng monastır kompleksində də ibadət edəcəkləri günləri səbirsizliklə gözləyirdilər.



2021-cü il avqustun 16-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Kəlbəcər rayonunda olublar. Prezident və xanımı Ömər aşırımından Kəlbəcərin füsunkar mənzərəsini seyr etdilər. Dövlətimizin başçısı və birinci xanım Toğanalı-Kəlbəcər avtomobil yolu üzərində Murovdağında inşa olunacaq 11,6 kilometrlik tunelin və Kəlbəcər-Laçın avtomobil yolu üzərində tikiləcək 3,4 kilometr uzunluğundakı tunelin təməllərinin qoyulması mərasimində və 110/35/10 kV-luq “Kəlbəcər” yarımstansiyasının açılışında iştirak etdilər. Həmçinin Kəlbəcər Kiçik Su Elektrik Stansiyasında görülən işlərlə tanış oldular.

2022-ci il iyunun 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Kəlbəcər rayonuna səfəri çərçivəsində “İstisu” sanatoriyasının, Kəlbəcər Rəqəmsal İdarəetmə Mərkəzinin, İşğal və Zəfər muzeyləri komplekslərinin təməlqoyma mərasimlərində və komando hərbi hissəsinə döyüş bayrağının verilməsinə həsr olunmuş təntənəli mərasimdə iştirak edib. Kəlbəcərdə “Çıraq-1” Kiçik Su Elektrik Stansiyasında tikinti işlərinin gedişi ilə, Kəlbəcər şəhərinin Baş planı ilə və Kəlbəcər-Laçın avtomobil yolunun inşası ilə tanış olub.

2023-cü il mayın 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Kəlbəcər rayonuna səfəri zamanı Zallar və Yanşaq kəndlərinin, Kəlbəcər şəhərində ilk yaşayış məhəlləsinin və məktəb



binasının təməllərinin qoyulması mərasimində, eləcə də hərbi hospitalın və "Meydan" və "Qamışlı" Kiçik Su Elektrik Stansiyalarının açılış mərasimlərində iştirak edib. Dövlət başçısı həmçinin uzunluğu 82 kilometr olan Toğanalı-Kəlbəcər-İstisu avtomobil yolunda inşa edilmiş tunellər və 2021-ci ilin noyabrından 2023-cü ilin mayınadək ümumilikdə bu yolda və uzunluğu 76 kilometr olan Kəlbəcər-Laçın avtomobil yolunda görülən işlərlə tanış olub.

2023-cü il avqustun 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Kəlbəcər rayonuna səfər ediblər. Səfər zamanı dövlətimizin başçısı və birinci xanım "AzərEnerji" Açıq Səhmdar Cəmiyyətinin 5,3 MVA gücündə olan "Soyuqbulaq" Kiçik Su Elektrik Stansiyasının və "Çıraq-1" və "Çıraq-2" Kiçik Su Elektrik stansiyalarının açılışında və Zar kəndinin təməlqoyma mərasimində iştirak ediblər. Həmçinin "İstisu" mineral sudoldurma zavodunun tikintisi və "İstisu" Müalicə-İstirahət Kompleksində görülən işlərlə tanış olublar.



2023-cü il noyabrın 7-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və oğulları Heydər Əliyev Kəlbəcər rayonunun Vəngli kəndində olublar. Qeyd edək ki, işğal dövründə ermənilər növbəti vandallıq aktı nümayiş etdirərək, azərbaycanlıların şəxsi avtomobillərinin nömrələrindən lövhə düzəltmişdilər. Prezident İlham Əliyev lövhənin sökülməsi ilə bağlı tapşırıq verdi.

Dövlətimizin başçısının gündəlik nəzarəti və qayğısı sayəsində Kəlbəcər rayonunun da daxil olduğu Şərqi Zəngəzur iqtisadi rayonu tezlikdə cənnətə çevriləcək.

**İstifadə edilmiş ədəbiyyat**

Nazim Vəlişov, Tahir Kazımlı. Həqiqətin Onomastikası-2 (Qarabağ və Şərqi Zəngəzur). Bakı-2023.

Azərbaycan Respublikasının inzibati-ərazi bölgüsü. Məlumat toplusu. Bakı, 2013.

Azərbaycan Milli Ensiklopediyası. Bakı, 2007.

Vətən müharibəsi tarixi. Şəxsiyyət faktoru. Bakı, 2021.

Qarabağ həqiqətləri = Karabakh Realities = Истины Карабаха. Bakı, 2011.

Qasımlı Musa. Azərbaycan Respublikasının tarixi (1991-2021). 2 cilddə. II cild (2003-2021). Bakı, 2021.

Paşayeva Məhəbbət. Qarabağın və Şərqi Zəngəzurun alban abidələri. Bakı, 2022.

Süleymanov Mehman. Münaqişənin həll edilməsi. reslib.az/projects/azdiplomacy/a2_4.pdf

https://president.az

https://azertag.az

https://files.preslib.az/projects/zefer/az/rayonlar.pdf

https://armenianvandalism.preslib.az/az_kalbajar.html